Öz başlanğıcını qədim zamanlardan götürən və müxtəlif sosial-ictimai şəraitdə formalaşan Azərbaycan arfa ifaçılığı yüksək peşəkar səciyyəsi ilə seçilir. Onun təşəkkülü və inkişafındailk arfa ifaçısı, Azərbaycanın əməkdar artisti Aida Abdullayevanın xüsusi rolu olmuşdur. O, Azərbaycan musiqisinin dahi klassiki Ü.Hacıbəylinin bilavasitə iştirakı ilə solo, kamera, orkestr ifaçılığı və pedaqogikasında əldə etdiyi nailiyyətlərlə, milli arfa ifaçılıq sənətinin sonrakı inkişafının təməlini qoymuşdur. Aida Abdullayevanın pedaqoji prinsiplərinin, onun tədris üsulları metodikasının əhəmiyyəti, eyni zamanda onun əxz etdiyi varislik ənənələri milli arfa sənətinin inkişafını müəyyənləşdirən başlıca amil olmuşdur.

Aida Abdullayevanın bir çox tələbələri öz fəaliyyətlərini genişləndirərək, onun arfa məktəbinin ənənələrini Azərbaycanın hüdudlarından kənarda, dünyanın müxtəlif ölkələrində uğurla inkişaf etdirmişlər. Odur ki, Azərbaycan arfa məktəbi nəinki milli, eləcə də dünya musiqi-ifaçılığı və pedaqogikasının bir hissəsinə çevrilmişdir. Sözsüz ki, bu prosesdə ilk növbədə, XX əsrin əvvəllərində ölkədə baş verən sosial-iqtisadi və mədəni dəyişikliklər vacib rol oynamışdır. Ü.Hacıbəylinin sayəsində musiqi incəsənəti milli prioritet olmaqla yanaşı,ümumdünya inkişaf səviyyəsinə yüksəlmişdir. Bu isə yeni musiqi təhsili sistemi və ifaçılıq ənənələrinin təşəkkülünə öz təsirini göstərməyə bilməzdi.

Milli arfa sənətində əhəmiyyətli hadisə olan Aida Abdullayevanın yaradıcılıq fəaliyyəti Azərbaycan arfa ənənələrinin başlıca inkişaf mərhələlərini təşkil etmişdir. Aida Abdullayeva sinfinin məzunları milli musiqi sənətinin müasir inkişaf mərhələsində öz müəllimlərinin şərəfli işini davam etdirirlər. Onlardan bir çoxu müxtəlif musiqi müsabiqələrinin laureatı adını qazanmışlar. Odur ki, Aida Abdullayevanın yaratdığı arfa məktəbi ifaçılıq sənətinin inkişafına öz töhfəsini verən parlaq musiqiçi nəslinin yetişməsinə səbəb olmuşdur.

Amma buna baxmayaraq, Aida Abdullayevanın yaradıcılıq fəaliyyəti milli musiqişünaslıq elmində bu günə qədər xüsusi tədqiqat işi kimi öz əksini tapmamışdır. Aida Abdullayevanın istər ifaçılıq və pedaqoji fəaliyyətinin səciyyəvi xüsusiyyətlərinin təşəkkülü nöqteyi-nəzərindən, istərsə də ümumilikdə, arfa sənətinin inkişafıilə bağlı bir çox mühümamilləraraşdırıl-

mamışdır. Qeyd olunanlar seçilən mövzunun aktuallığını müəyyənləşdirir, onun tədqiqiisə bu sahəyə dair biliklərin zənginləşdirilməsinə,müasir arfa sənətinə xas olan bir sıra məsələlərin öyrənilməsinəşərait yaradır.

Azərbaycan arfa sənətinin təşəkkülü və inkişafında Aida Abdullayevanın rolunun tədqiqi təkcə tarixi nöqteyi-nəzərdən elmi əhəmiyyət kəsb etmir. Arfa ifaçılıq problemlərihəmçinin milli ifaçılıq sənətinin perspektivləri və müxtəlif tərəflərinin vəziyyətinə dair müasir baxışlar etibarilə də aktualdır. Milli arfa sənətinin keçmişinə və hazırki dövrünə dair məlumatlara malik olmadan, ümumilikdə Azərbaycan ifaçılıq sənətinin inkişafı haqqında kifayət qədər geniş fikir söyləmək mümkün deyil. Arfa ifaçılıq ənənələrinin yaranmasına dair elmi tədqiqatın aparılması, bu prosesdə ayrı-ayrı musiqiçilərin rolunun üzə çıxarılması, onların peşəkar ustalığının araşdırılması tam mənzərənin yaranmasına imkan verəcəkdir.

Hazırki tədqiqat işinin aktuallığı həmçinin Azərbaycanda arfa ifaçılığının yaranma tarixinə dair məsələlərin nəzərdən keçirilməsi, onun inkişaf xüsusiyyətlərinin üzə çıxarılması, klassik və milli arfa repertuarının interpretasiya ənənələrinin öyrənilməsinə olan tələbatla müəyyənləşdirilir.

**Dissertasiyanın işlənmə dərəcəsi.** Hazırki dissertasiya işinin qarşısında duran başlıca məsələ ondan ibarətdir ki, arfa ifaçılıq sənətinin təşəkkülü və inkişafında mühüm rolu olmuş musiqiçilər, ilk növbədə Aida Abdullayevaya haqqında materialların olmamasıdır. Bununla bağlı olaraq, tədqiqat materialının kasadlığı səbəbindən, problemin dərindən öyrənilməsi məsələsi qarşıda iti şəkildə durmuşdur. Bu materialların toplanılması və bərpa olunması çox çətinliklə həyata keçirilmişdir. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının arxivindən əldə olunan sənədlər, A.Abdullayevanınailə arxivi, onun yaxınları, dostları və tələbələrinin xatirələri, onlarla aparılan müsahibələr bu prosesdə vacib rol oynamışdır.

Arfa musiqisinin öyrənilməsində Aida Abdullayevanın üç məruzəsi (“Arfa mədəniyyətinin inkişafına dair”, “K.A.Erdeli - sovet arfa sənətinin banisidir”, “V.Q.Dulova - müasirliyin görkəmli arfa ifaçısıdır”) Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının arxivində saxlanılan və məqaləsi (“Arfa Azərbaycan musiqisində”) əhəmiyyətli mənbədir. Birinci məruzədə (“Arfa mədəniyyətinin inkişafına dair”)qədim zamanlardan müasir dövrə qədər arfa alətinin təkamülü, arfa ifaçılarının həyat və yaradıcılıq yolu qısaca işıqlandırılır, arfa sənətinin inkişafında vacib rol oynayan bəstəkarlarının yaradıcılığı, eləcə də Avropa və rus arfa ifaçılarının fəaliyyəti nəzərdən keçirilir. Bununla yanaşı, birinci məruzədə M.İ.Qlinkanın əsərlərində arfanın rolu hərtərəfli işıqlandırılır.

İkinci məruzədə (“K.A.Erdeli - sovet arfa sənətinin banisidir”) XX əsrin görkəmli arfa ifaçısı K.A.Erdelinin yaradıcılığı səciyyələndirilir. Aida Abdullayeva XVIII əsrin sonu Rusiyada arfa sənətinin inkişaf tarixini nəzərdən keçirir, burada arfa sənətinin “ilk islahatçıları”nın adlarını xüsusi olaraq vurğulayır.

Üçüncü məruzədə(“V.Q.Dulova – müasirliyin görkəmli arfa ifaçısıdır”) rus arfa sənətinin ən layiqli nümayəndələrindən biri olan V.Q.Dulovanın ifaçılıq və pedaqoji fəaliyyəti əksini tapır. V.Dulovanın konsert fəaliyyətini geniş işıqlandıran A.Abdullayeva, görkəmli arfa ifaçısının arfa üçün işləmələrini və redaktə işini xüsusi qeyd edir.

Aida Abdullayevanın “Arfa Azərbaycan musiqisində”[29] adlı kiçik məqaləsi heç şübhəsiz, böyük maraq doğurur. Burada ilk dəfə olaraq,bu musiqi alətinin milli musiqi mədəniyyətində rolundan bəhs olunur. Məqalədə ilk Azərbaycan opera, balet və simfonik əsərlərinin adı çəkilir, bu əsərlərin partituralarına daxil edilən arfa partiyasının müəyyən çətinlikləri və ifaçılıq xüsusiyyətləri qeyd olunur.

Televiziyada saxlanılan səs yazıları və arxiv materialları - dövri mətbuatdakı çıxışlar, konsert haqqında yazılmış resenziyalar, Aida Abdullayevanın münsiflər heyətinin üzvi olduğu müsabiqələrə dair informasiyalar onun ifaçılıq fəaliyyəti haqqında dəyərli mənbədir. Onlardan bəziləri A.Abdullayevanın pedaqoji və ifaçılıq fəaliyyəti haqqında qısa biblioqrafik məlumat və informasiya verir[30].

A.Abdullayevanın fəaliyyətinin səciyyəsi A.Tağızadə[31], A.Zamanova[32], N.İsmayılova[33], C.Səlimxanov[34], A.Şərif[35], Q.Hüseynovanın[36] məqaləsində əksini tapmışdır.

---

[29] Abdullayeva A. “Elm və həyat”, 1985, № 8, s.22-23

[30] “Bakı” qəzeti, №115 (614) 18 may 1965-ci il; “Dağıstan xəbərləri” qəzeti, 25 fevral 1993-cü il; “Vışka” qəzeti, №75 (6191), 15 aprel 1950-ci il; “İzvestiya” qəzeti, № 143 (15537), 20 iyun 1967-ci il; “Sovet musiqiçisi”, №6 (942), 25 aprel, 1979-ci il; “Proqram radiosu” qəzeti, №3 (127) 15 yanvar 1949-cu il; “Proqram radiosu” qəzeti, №18 (142) 30 aprel 1949-cu il

[31] Tağızadə A. Keçmiş musiqi elitasının son nümayəndələrindən biri... // “Musiqi dünyası” jurnalı, 3-4/41 2009, s.40

[32] Замановой А. Прекрасных женщин имена // “Şərqi”, 2002, №1(8)

[33] Исмайловой Н.Я вам пишу… Газ. «Зеркало», 12 апреля, 2003 г.

[34] Селимханов Д. “Музыка и вся жизнь” // Журнал «Каспий». Баку, Азербайджан, 1997, с. 129-130

[35]Шариф А. «Генерал Араблинский и его потомки» Газ. «Зеркало», №5, 10 января, 2004 г.

Q.Hüseynovanın Azərbaycan bəstəkarlarının əsərlərində arfa prinsiplərinin öyrənilməsinə həsr olunmuş monoqrafiyası[37] Azərbaycan arfa musiqisinin öyrənilməsində vacib mənbədir. Q.Hüseynovanın əsərində qədim Şərqdə təşəkkül tapan arfanın Avropa instrumental musiqi mədəniyyətində inkişafı və onun Azərbaycan ərazisindəformalaşması izahını tapır.

Dissertasiya müəllifi tərəfindən həmçinin"Aida Abdullayeva"[38] adlı monoqrafiya nəşr olunmuşdur. Elmi əsərdə onun həyat yolu vəyaradıcılıq fəaliyyəti hərtərəfli əksini tapmışdır. Monoqrafiyaya həmçinin A.Abdullayeva haqqında başqa müəlliflərin bir sıra məqalələri, onun yaxınları, dostları, həmkarları və tələbələrinin xatirələri daxil edilmişdir.

Azərbaycan musiqi alətləri haqqında dəyərli məlumatı S.Abdullayevanın[39] əsaslı elmi əsərlərində əldə edirik. Alimin diqqət mərkəzində Azərbaycan çalğı alətləri ilə bağlı geniş problemlər dairəsi durur.

Azərbaycan musiqi alətlərinə dair müəyyən informasiyanı Ə.Bədəlbəyli[40], T.Bünyadov[41], V.Əbdülqasımov[42], M.Kərimov[43], A.Nəcəfzadə[44] və digərlərinin elmi əsərlərində əldə etmək olar.

Hazırki tədqiqat işi kontekstində Azərbaycan musiqi mədəniyyəti və təhsilinin inkişaf yollarını işıqlandıran elmi əsərlər ümumilikdə nəzərdən keçirilmişdir[45].

---

[36] Hüseynova Q. Ayda Abdullayeva'nın yaratıcılığı. Azərbaycan'da (harp) arp sanatının görkemli temsilcisi. // Azerbaycan. Türk kültür dergisi, Kazım-Aralık, 2000, səh. 42-44

[37] Hüseynova Q. "Arfa və onun Azərbaycan professional musiqisinin inkişafında rolu". Bakı, "Adiloğlu", 2005.

[38] Taptıqova Y. "Aida Abdullayeva", Bakı, "Oka Ofset", 2012.

[39] Абдуллаева С. Народный музыкальный инструментарий Азербайджана. Баку, 2000.; Azərbaycan folklorunda çalğı alətləri. Bakı, 2007, 214 s.; Azərbaycan musiqisi və təsviri sənət. Bakı, 2010.

[40] Bədəlbəyli Ə. İzahlı monoqrafik musiqi lüğəti. Bakı, "Elm", 1969.

[41] Bünyadov T. Əsrlərdən gələn səslər. Bakı, "Azərnəşr", 1993

[42] Əbdülqasımov V. Azərbaycan tarı. Bakı, 1989.

[43] Керимов M. Azərbaycan musiqi alətləri. Bakı, Yeni nəsil, 2003+ disk

[44] Nəcəfzadə A. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti. Bakı, 200; Azərbaycan idiofonlu çalğı alətləri. Bakı, 2010.

[45] Сб. Азербайджанская Государственная Консерватория им.У.Гаджибекова. Баку, Азернешр, 1972; Иса-задеА. Летопись музыкальной жизни Азербайджана 1920-26. Баку, 1965.; İsazadə Ə.Azərbaycan sovet bəstəkarlarının instrumental yaradıcılığı. Bakı, Az.SSR Elmlər Akademiyası, 1961.; Дильбазова М. Из музыкального прошлого Баку (вторая половина XIX – начало XX века). Баку: Ишыг, 1985.

D.Roqal-Levitskinin[46], V.Dulovanın[47], Y.Yazvinskayanın[48], İ.Polomarenkonun[49], M.Kapustinin[50] əsərləri məlumatverici xarakteri daşıyır.

K.Erdelinin kitabında[51] Ü.Hacıbəylinin Azərbaycan arfa sənətinin təşəkkülündə göstərdiyi xidmətlərinə dair qısaməlumata təsadüf edilir. Bununla yanaşı, görkəmli arfa ifaçısının kitabındaXIX əsrin sonları - XX əsrin 60-cı illərini əhatə edən musiqi həyatına dair onun xatirələri, arfanın təşəkkülü, tam hüquqlu solo alət kimi səciyyəsi haqqında informasiya cəmləşmişdir.

Musiqi əsərlərinin ifaçılıq məsələlərinə dair B.Asafyevin[52] tədqiqat işləri həmçinin dəyərli mənbədir.

Tədqiqat zamanı müəllif tərəfindən mövzunun öyrənilməsinə işıq salan bu və digər mənbələrə istinad olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi** seçilmiş mövzunun Azərbaycan musiqişünaslıq elmində yetəri dərəcədə işlənməməsi ilə şərtləşdirilir. Aida Abdullayevanın həyat yolu, ifaçılıq və pedaqoji fəaliyyəti ilk dəfə olaraq milli musiqi mədəniyyəti konteksti ilə kompleksli bir şəkildə qarşılıqlı əlaqədə və bu günə qədər məlum olan bütün mənbələr daxil olmaqla ilk dəfə nəzərdən keçirilmişdir.

Elmi əsərin tədqiqi zamanı bir sıra arxiv sənədlərindən, eyni zamanda tədqiqatın hərtərəfli yerinə yetirilməsi üçün mənbəşünaslığın bu gün məlum olan bütün elmi bazalarından istifadə olunmuşdur.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının arxivində Aida Abdullayevanın elmi əsərlərinin əlyazıları hazırki tədqiqatın müəllifi tərəfindən aşkar olunmuş və təhlil edilmişdir.

Eyni zamanda A.Abdullayevanın ifasını Azərbaycan Dövlət Televiziya və Radio şirkətinin arxivindən taparaq təhlil etmişdir.

Bununla yanaşı, Aida Abdullayevanın yaradıcılıq fəaliyyətinin təhlili həyata keçirilmiş, ilk dəfə onun ifaçılıq üslubunun əsasları, pedaqogikasının tədris üsulları və elmi-metodik fəaliyyəti tədqiq olunmuşdur.

---

[46]Рогаль–Левицкого Д. Современный оркестр. М., 1956, 4Т.

[47]Дулова В. Искусство игры на арфе. М.,1975.

[48]Язвинская Е.Арфа. М.: Музыка,1968.

[49]Поломаренко И.Арфа в прошлом и настоящем.М.- Л.1939.

[50]Капустин М. Вера Дулова. М.: Музыка, 1981,.

[51] Эрдели К. «Арфа в моей жизни». Мемуары. М.: Музыка, 1967.

[52]Асафьев Б.В.Избранные статьи о музыкальном просвещении и образовании. - Л.. Музыка, 1973; Музыкальная форма как процесс. - Л., 1971.; Речевая интонация. - М. - Л.: Музыка, 1965.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi Azərbaycan arfa ifaçılıq sənətinin təkamül prosesində A.Abdullayevanın milli musiqi mədəniyyətinin üzvi hissəsi kimi rolunun müəyyənləşdirilməsindən ibarətdir. A.Abdullayevanın geniş fəaliyyətinə – onun musiqi ifaçısı, pedaqoq və metodika mütəxəssisi kimi səciyyəsinə, bədii-ifaçılıq prinsipləri və pedaqoji üsulların qanunauyğunluqlarına, bu üsulların Azərbaycan arfa sənətinin inkişafında əhəmiyyətinə dair obyektiv bilik və məlumatların kompleksli təhlili həmçinin, tədqiqat işinin məqsədini təşkil edir.

Dissertasiya işində aşağıdakı **vəzifələr** ortaya qoyulmuşdur:

- Aida Abdullayevanın həyat və yaradıcılıq tərcümeyi-halının bərpası;

-A.Abdullayevanın yaradıcılıq fəaliyyəti nümunəsində Azərbaycan arfa ifaçılıq sənətinin inkişaf xüsusiyyətlərinin üzə çıxarılması;

- Aida Abdullayevanın ifaçılıq fəaliyyətinin səciyyəvi xüsusiyyətlərinin meydana çıxarılması;

- Aida Abdullayevanın pedaqoji prinsiplərinin müəyyənləşdirilməsi;

- Aida Abdullayevanın ifaçılıq və pedaqoji dəst-xəttinin qarşılıqlı təsirinin nəzərdən keçirilməsi;

- Aida Abdullayevanın elmi-metodik əsərlərinin xarakterizə edilməsi;

- tədqiqat mövzusu ilə bağlı mənbəşünaslıq bazasının yeni arxiv məlumatları və audio materiallarla genişləndirilməsi.

**Tədqiqatın metodologiyası.** Tədqiqat işində görkəmli musiqiçilərin yaradıcılıq fəaliyyətinin kompleksli tədqiqinə dair müasir konsepsiya, eləcə də öyrənilən mövzu ilə bağlı mərhələvi-tarixi yanaşmaya əsaslanan sistemli metod tətbiq olunmuşdur. Hazırki tədqiqat işi üçün B.Asafyev[53], Y.Barsova[54], A.Soxor[55] və bir sıra digər alimlərin ayrı-ayrı musiqiçilərin fəaliyyətinə həsr olunmuş elmi əsərləri faydalı olmuşdur.

Tədqiqatın üsul və metodları musiqişünaslığın həm ümumi, həm də ayrı-ayrı sahələrini özündə cəmləşdirir. Hazırki dissertasiya işində klassik arfa ifaçılığının banisi Aida Abdullayevanın yaradıcılıq yolu tədqiq olunur. Odur ki, bioqrafik və tarixi rekonstruksiya metodlarının tətbiqi əhəmiyyətli olmuşdur. Bu üsulların tətbiqi konkret tarixi dövr ərzində tədqiqat obyektinin təşəkkülü və inkişafını nəzərdən keçirməyə imkan verir.

---

[53] Асафьев Б.В. Критические статьи, очерки, рецензии. – М.-Л.: Музыка, 1967.

[54] Барсов Ю.А. Вокально-исполнительские и педагогические принципы М.И.Глинки. Л.: Музыка, 1968

[55] Сохор А.Н. Музыка// Музыкальная энциклопедия, т.3.М.: «Советская энциклопедия», 1976.

Dissertasiya işində bir sıra problemlərin öyrənilməsi üçün elmi-dərk etmə şərtlərini mənbəşünaslıq yaradır. Mənbəşünaslığın metodoloji prinsipləri Aida Abdullayevanın həyat və yaradıcılığına dair materialların toplanılması və onların tədqiqi prosesində əmələ gəlmişdir. Tədqiqat zamanı musiqi mətni ilə iş üsullarından istifadə olunmuşdur. Yəni, musiqi səs yazıları və əvvəllər məlum olmayan mənbələr araşdırılmışdır. Bu mənbələr Aida Abdullayevanın bədii fəaliyyətinin faktlarını və onun ifaçılıq xüsusiyyətlərini müəyyənləşdirməyəkömək etmişdir.

**Tədqiqatın predmetini** Aida Abdullayevanın ifaçılıq, pedaqoji və elmi-metodik prinsipləri və onların bütün tarixi mərhələlərdə qarşılıqlı əlaqəsi təşkil edir.

**Tədqiqatın obyekti** Aida Abdullayevanın çoxcəhətli yaradıcılıq fəaliyyətindən ibarətdir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Dissertasiyada tədqiq olunan məsələlər "İfaçılıq sənəti tarixi" kurslarında, eləcə də simli alətlərdə tədris üsulları metodikası zamanıistifadə oluna bilər. Dissertasiyanın metodoloji göstərişləri Azərbaycan arfa sənətinin sonrakı tədqiqatları, eləcə də milli ifaçılıq sənətinin digər görkəmli musiqiçilərinin yaradıcılıq fəaliyyətinin öyrənilməsi üçün faydalı ola bilər.

**Tədqiqatın faktik materialı.** Elmi axtarışlar nəticəsində tədqiqat işinə yeni materiallar daxil edilmişdir. A.Abdullayevanın yaradıcılıq tərcümeyi-halının tam külliyyatı olan arxiv sənədləri, məqalələr, elmi-metodik və not materialları əsasında təşkil olunmuş tam baza mənbəyi yaradılmışdır. Tədqiqat işində xüsusi diqqət Aida Abdullayevanın solo arfa üçün işləmələri, arfanın iştirakı ilə ansambl və orkestr əsərlərinin və elmi-metodik işlərin tədqiqinə həsr olunmuşdur. Müəllif Aida Abdullayevanın səs yazıları əsasında not mətninin şərhini vermişdir.Bu materiallar bütün digərləri ilə bərabər tədqiqat işinin faktiki materialını təşkil edir.

**İşin aprobasiyası.** Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında müzakirə olunaraq, təsdiq edilmişdir. Tədqiqatın nəticələri bir sıra elmi məqalələrdə, gənc aspirant və alimlərin Respublika konfranslarında çıxışları, beynəlxalq qiyabi elmi konfranslarda öz əksini tapmışdır.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi giriş, dörd fəsil, səkkiz yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyat, saytoqrafiya, notoqrafiyadan ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı, elmi işlənmə dərəcəsi, elmi yeniliyi əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, praktiki əhəmiyyəti, materialı, aprobasiyası və strukturu müəyyənləşdirilir.

**I Fəsil - "Aida Abdullayeva Azərbaycan klassik arfa məktəbinin yaradıcısı kimi"** -iki yarımfəsildən ibarət olub, Azərbaycanda arfa sənətinin təşəkkülü, eləcə də Aida Abdullayevanın həyat və yaradıcılıq fəaliyyəti nəzərdən keçirilir.

**1.1. - "Azərbaycanda arfa sənətinin təşəkkülünün bəzi tarixi aspektləri**". Azərbaycan ərazisində qədim zamanlardan mövcud olan arfaya bənzər musiqi alətlərindən bəhs olunur. Bu nümunələrdən biri olan çəng, Orta əsrlərdə simlərinin sayı və forması ilə seçilmişdir. Çəng musiqi alətinin səslənməsini təsvir edən Nizami, Füzuli və digər şairlərin yaradıcılığı qədim Azərbaycan alətləri haqqında misilsiz mənbədir.

Azərbaycanda müasir arfanın tarixçəsi milli musiqi mədəniyyətinin XIX əsrin sonu – XX əsrin əvvəllərinə aid Avropa mədəniyyətinin qarşılıqlı təsiri, opera teatrı, simfonik orkestrin meydana çıxması, dünya şöhrətli solistlərin və opera truppalarının qastrol səfərləri ilə bağlıdır. Azərbaycanda arfa çalğısının erkən mərhələləri milli opera musiqisinin inkişafı ilə müəyyənləşmişdir.

Yeni mərhələ XX əsrin 20-ci illərindən başlanır. Həmin dövrdə Respublikada musiqi təhsilinin möhkəm təməli qoyulur. Arfada peşəkar təhsil öz başlanğıcını 1937-ci ildə Azərbaycan Dövlət Konservatoriyasında arfa sinfnin açılmasından götürür. Müxtəlif illərdə burada Y.Şleziger və A.Dargeviç dərs demişdir. Lakin onlar xüsusi təhsilə malik deyildilər. Milli musiqiçi kadrların, o cümlədən arfa sinfi üzrə ixtisaslı mütəxəssislərin tərbiyə olunması üçün Ü.Hacıbəylinin təşəbbüsü ilə bir dəstə tələbə Moskva konservatoriyasına yollanır. A.Abdullayeva da onların sırasında idi. Arfa sinfinin inkişafı onun Moskvadan vətənə qayıtması və Azərbaycan Dövlət Konservatoriyasındakı pedaqoji fəaliyyəti ilə başlayır. Məhz A.Abdullayeva ilk peşəkar Azərbaycan arfa ifaçısı olmuşdur. Müasir Azərbaycan arfa məktəbinin təşəkkülü, inkişafı və çiçəklənməsi onun adı ilə bağlıdır.

**1.2. – "AidaAbdullayevanın həyat və yaradıcılığının əsas mərhələləri".** Hazırki yarımfəsildə onun həyat və yaradıcılığının əsas məqamları işıqlandırılır. Elm və yüksək mədəniyyətə xüsusi meyl göstərən və Aida Abdullayevanın xarakterinə və dünyagörüşünə müstəsna təsir edən Ərəblinskilər nəsli və knyaz Usmiyevlər sülaləsi ilə bağlı ailə ənənələrinin rolu qeyd olunur. Abdullayevlər ailəsi çoxsaylı fəlakətlərlə üzləşsə də, onlar

bütün çətinliklərə sinə gəlmişlər. Həyat çətinliklərinə baxmayaraq,ailənin beş övladı yüksək təhsil almış və bu nəslin şərəfli ənənəsini ləyaqətlə davam etdirmişlər.

Aida Abdullayeva ilk musiqi təhsilini Azərbaycan Dövlət Konservatoriyası nəzdindəki onillik musiqi məktəbində almışdır. Lakin atasının 1930-cu ildə repressiya cəzasına məhkumolunması ilə əlaqədar, musiqi məşğələləri dayanaraq, yalnız bir neçə ildən sonra "İşçi kursları"nda davam etdirilmişdir. O, burada arfa müəllimi Y.B.Şleziger ilə tanış olur. A.Abdullayevanın bir arfa ifaçısı kimi təşəkkülündə onun böyük rolu olmuşdur. 1938-ci ildə ilk şagird konsertində onun çıxışı Ü.Hacıbəylinin diqqətini cəlb edir. O, gənc arfa ifaçısının istedadını yüksək qiymətləndirir. 1940-cı ildə dahi bəstəkarın köməyi ilə o, ali musiqi təhsilinə yiyələnmək üçün P.Çaykovski adına Moskva Konservatoriyasına, arfa sinfi üzrə K.Erdelinin sinfinə yollanır. Lakin 1941-ci ildə İkinci dünya müharibəsi ilə əlaqədar Aida Abdullayeva Bakıya qayıdır və Azərbaycan opera və balet teatrında arfa ifaçısı kimi işə qəbul olunur. Lakin o zamanlar "xalq düşməni" adlandırılan ailələrin təqibi davam etdiyinə görə, 1942-ci ildə o, qohumları ilə birgə Şimali Qazaxstana köçməli olur. 1943-cü ildə Ü.Hacıbəylinin xahişi və köməyi ilə Bakıya qayıda bilir, Konservatoriyadakı məşğələlərini davam etdirir və Radio Komitəsinin simfonik orkestrində işləməyə başlayır. Beləliklə, Aida xanım yaradıcılıq tərcümeyi-halında, onun müqəddəratında Ü.Hacıbəyli böyük rol oynamışdır. O, A.Abdullayevanın parlaq istedadını müəyyən etmiş və onun yaradıcı təşəkkülünün inkişafına öz töhfəsini vermişdir.

1944-cü ildə Aida Abdullayeva nəhayət, P.Çaykovski adına Moskva Konservatoriyasının tələbəsi olur, burada parlaq peşəkar təhsil alır. Moskva konservatoriyasında onun Azərbaycan milli arfa məktəbinin inkişafına istiqamətlənən gələcək fəaliyyətinin möhkəm təməli qoyulur.

1950-ci ildə Aida Abdullayeva arfa sinfi üzrə müəllim kimi işə başlayaraq, ömrünün son günlərinə qədər (2009) arasıkəsilmədən fəaliyyətini davam etdirir. Onun yaradıcılıq və pedaqoji fəaliyyəti Azərbaycanda arfa sənətini yüksək professional səviyyəyə yüksəldərək, professional arfa ifaçılığının çiçəklənməsinə və onun beynəlxalq miqyasda tanınmasına səbəb olur.

**II Fəsil – "Aida Abdullayevanın ifaçılıq fəaliyyəti onun yaradıcılığının tədqiqat mənbəyi kimi"** – iki yarımfəsildən ibarətdir.

**2.1. "Aida Abdullayevanın konsert fəaliyyəti"** – onun ifaçılıq xüsusiyyətlərini üzə çıxarır. Qeyd olunur ki, P.İ.Çaykovski adına Moskva Konservatoriyasının tələbəsi olan dövrdə A.Abdullayeva Ümumittifaq radioda tez-tez çıxış etmişdir.

Aida Abdullayevanın Bakıda ilk çıxışı 6 aprel 1950-ci ildə baş tutmuşdur. Bu konsert onun fəal ifaçılıq fəaliyyətinin başlanğıcı oldu. Aida Abdullayeva konsert proqramlarında təkcə solist kimi deyil, eyni zamanda ansambl iştirakçısı kimidə tez-tez çıxış etmişdir. Onun repertuarına V.A.Motsart, M.Ravel, R.Qliyer və digər bəstəkarların arfa və simfonik orkestr üçün klassik konsertləri kimi iri həcmli əsərlər, eləcə də Azərbaycan bəstəkarlarının solo arfa üçün əsərləri daxil idi.

1950-1969-cu illər ərzində A.Abdullayeva öz fəaliyyətini M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında, Ü.Hacıbəyov adına Azərbaycan Dövlət simfonik orkestrində davam etdirmişdir. O, Azərbaycan bəstəkarlarının bir sıra əsərlərinin premyerasının bilavasitə iştirakçısı olmuşdur. Bu əsərlərdə arfa partiyası onun bilavasitə iştirakı və köməyi ilə yaranmış və redaktə olunmuşdur.

1972-ci ildə Aida Abdullayeva məhsuldar ifaçılıq fəaliyyətinə görə Azərbaycanın əməkdar artisti adına layiq görülmüşdür.

V.A.Motsartın arfa və orkestr üçün C-dur konserti Aida Abdullayevanın repertuarında özünə yer alan və ifaçı tərəfindən ən çox sevilən konsert əsərlərindən biri olmuşdur. O, bu əsəri E.Namazovla birgə ifa etmişdir. Onunqarşısında duran başlıca vəzifə parlaq virtuozluğun nümayiş etdirilməsi deyildi, ifanın lətif ahəngdarlığını və ornamentlərlə bəzənmiş cürbəcür melizmləri göstərməkdən ibarət idi. Bundan başqa, Motsart əsərində arfa partiyası uzun arpecio ilə mürəkkəbləşdirilmişdir və onların ifası zamanı A.Abdullayeva hər barmağın səs müntəzəmliyi və hamarlığına, eləcə də applikatura dəqiqliyinə nail olmuşdur. V.Motsartın sözü gedən konsertində o, dahi bəstəkarınnikbin həyat duyğusunu bütün dərinliklərinə qədər canlandırmış, səs hasili zamanı əldə olunan mükəmməllik və pedaldan kamil istifadə bacarığı ifadə etmişdir.

**2.2. "Aida Abdullayevanın ifaçılıq təcrübəsində musiqi əsərlərinin interpretasiyası"** – hazırki yarımfəsildə onun ifaçılıq xüsusiyyətləri öz əksini tapmışdır. İfasının başlıca cəhətləri kimi- texniki ustalıq və incə artistizmin vəhdəti, alətə sərbəst yiyələnmə, virtuoz texnika, eyni zamanda həlim səs ahəngi, ifa olunan əsərlərin dövr və üslubunun dərk olunması qeyd edilir. Ansambl texnikasına məharətlə yiyələnmə, musiqinin birgə ifasının bəxş etdiyi gözəl duyğuhissi bütün bu xüsusiyyətləri tamamlayırdı.

Aida Abdullayevanın repertuarı Qərbi Avropa klassikləri və Azərbaycan bəstəkarlarının əsərlərini özündə cəm edirdi. Onun ifasında M.Turnye, Salsedo, M.Ravel, V.Motsart, Qliyer, H.Hendel, İ.S.Bax, Tsabel, Q.Qarayev, Z.Bağırov, H.Xanməmmədov, X.Mirzəzadə və digər

bəstəkarların görkəmli əsərləri səslənmişdir. Əsaslı surətdə düşünülmüş repertuar, musiqi mətninin bütün çalarlarının incələnməsi, müəllif fikrinin mükəmməl bir şəkildə təcəssümü – A.Abdullayevanın təkrarsız ifaçılıq üslubunun əsasını təşkil etmişdir.

Aida Abdullayevanın repertuarını şərti olaraq bir neçə hissəyə ayrımaq olar – orijinal müəllif əsərləri, işləmələr və transkripsiyalar. Lakin onların hamısını bir xüsüsiyyət birləşdirir – musiqi mətninə illər boyu sərbəst münasibətin formalaşması,yeni texnika və çalğı üsullarının tətbiqində özünü göstərən ifaçılıq yenilikləri buna misaldır.

Aida Abdullayeva bəstəkar fikrini orijinal surətdə şərh edirdi, arfanın imkanlarından irəli gələrək yeni ideyalar həyata keçirirdi, lakin bu zaman əsərin üslubuna ciddi surətdə əməl edirdi. Musiqi əsərinin interpretasiyasını yaradaraq o, əlavə səslərin meydana çıxmasına yol vermirdi, səs tellərinin üzərinə barmağın dəqiq düşməsi ilə əlavə səslərin qarşısını alırdı, müxtəlif passajları, arpeciolu akkordları, qlissandoları, flajoletləri sevirdi və onları ustalıqla ifa edirdi. Bu zaman səs həmişə həlim, rəvan və müntəzəm olaraq qalırdı.

Aida Abdullayeva xarakter, temp, səs gurluğu etibarilə müxtəlif əsərlər ifa edirdi. Klassik pyeslərin ifası zamanı onun çalğısı “ciddi” səs və dəqiq ritmə malik olurdu; müasir müəlliflərin əsərləri – aydın və emosional ifa ilə səciyyələnirdi. Virtuozluqruh yüksəkliyinə malik ifa ilə növbələşirdi və hətta ifa baxımdan ən mürəkkəb musiqili-texniki əsərdə, məsələn, M.Ravelin “İntroduksiya və allegro”su kimi pyesdə o, əsərin obrazlı məzmununu dərindən ifadə etməyi bacarırdı.

Virtuoz-konsert əsərlərində, lirik miniatürlərdə və ya iri formalı əsərlərdə o, dəqiq ifa üslubu əldə edirdi. Q.Qarayev, F.Əmirov, T.Quliyevin lirik pyeslərində onun istedadının lirik ricəti üzə çıxırdı. Bu bəstəkarların “Laylay” pyeslərinin arfa üçün işləməsi sadəliyi və ürəyəyatımlığı ilə məftun edirdi. Q.Qarayevin “İldırımlı yollarla” baletindən ayrı-ayrı nömrələr isə temperamenti və nəşəli çalğısı, hər bir ştrixin dəqiqliyivə mükəmməlliyi ilə valeh edirdi. Bütün bunların baş verməsində əsas səbəb ondan ibarət idi ki, A.Abdullayeva musiqi fikrinin daxili məntiqi inkişafına arxitektonik qavrama qabiliyyəti ilə nəzarət edirdi. Yəni, bu və ya digər əsərin hissələrinə və yaxud ümumilikdə onun bütövlüyünə dair tam təsəvvürə malik idi.

**III Fəsil – “Aida Abdullayevanın pedaqoji prinsipləri və arfada müasir tədris üsulları”** – iki yarımfəsildən ibarətdir.

**3.1. - “Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında Aida Abdullayevanın pedaqoji fəaliyyəti”** – musiqiçinin bu tədris müəs-

sisəsindəki fəaliyyəti səciyyələndirilir, milli arfa pedaqogikasının inkişafında onun xüsusi rolu üzə çıxarılır.Qeyd olunur ki, onun səyləri nəticəsində konservatoriya konsert arfaları əldə etmişdir və Azərbaycanda arfa sənətinin inkişafında yeni mərhələ başlamışdır.

Aida Abdullayeva - özünü musiqi pedaqogikasına, arfada milli musiqi ifaçılar kadrının tərbiyəsinə həsr edən ilk Azərbaycanlı qadındır. Əldə etdiyi nailiyyətlərlə heç zaman qane olmayaraq o, 1969-cu ildə A.Zeynallı adına musiqi texnikumunda, 1978-ci ildə isə S.Hacıbəyov adına Sumqayıt musiqi texnikumundaarfa sinfinin açılmasında köməklik göstərmişdir.

Orta ixtisas musiqi məktəblərinin müəllimləri üçün onun keçirdiyi açıq dərsləri xüsusi qeyd etmək lazımdır.Bu praktik məşğələlər maraqlı məruzələrə çevrilərək, təcrübə keçən stajçı- pedaqoqları özünə cəlb edirdi.

Konservatoriyada özünün yorulmaq bilməyən pedaqoji fəaliyyəti nəticəsində Aida Abdullayeva əlli ildən artıq bir müddət ərzində xeyli sayda peşəkar mütəxəssis hazırlayaraq, yetirmişdir. Hazırda onlar nəinki Respublika müəssələrindən, eləcə də onun hüdudlarından kənarda pedaqoji fəaliyyətini uğurla davam etdirirlər.

Aida Abdullayeva hər il sinif konsertləri keçirirdi. Belə konsert proqramlarına solo əsərlərlə yanaşı, ansambl nömrələri də daxil edilirdi. Çox zaman A.Abdullayeva sinfinin tələbələrinin iştirakı ilə keçirilən arfa gecələri maraqlı konsert-məruzələrlə müşayiət olunurdu.

Aida xanımın təşəbbüsü ilə XX əsrin 70-ci illərində Azərbaycanda arfa kvarteti yaradılmışdı. Onun tərkibinə S.Xəlilova, A.Zeynalova, Ç.Rzayeva, D.Sadıxova daxil idi. Kvartet konsert meydançalarında, televiziyada, dövlət tədbirlərində böyük uğurla çıxış edirdi. Bu ansambl üçün repertuar A.Abdullayeva tərəfindən tərtib olunurdu və dörd arfa üçün işləmələrdən ibarət idi: M.Maqomayevin “Şah İsmayıl” operasına Uvertüra, Q.Qarayevin “İldırımlı yollarla” baletindən “Qızların gitara ilə rəqsi”, Z.Bağırovun “Çahargah rapsodiyası” və başqa əsərlər buna misaldır.

Aida Abdullayeva müsabiqələrin təşkili və keçirilməsinə, eləcə də tələbələrinin bu yaradıcılıq yarışlarında iştirak etmək üçün hazırlığına böyük vaxt sərf edirdi. O, musiqi - ifaçıların VII Zaqafqaziya müsabiqəsinin münsiflər heyətinin üzvü idi və onun təşəbbüsü iləbu müsabiqəyə arfa aləti daxil edilmişdi.

1977-ci ildə məhsuldar ifaçılıq və pedaqoji fəaliyyətinə görə Aida Abdullayeva dosent elmi adına layiq görülür, 1985-ci ildə isə arfa sinfinin professoru adına yüksəlir.

**3.2. "Aida Abdullayevanın pedaqoji fəaliyyətinin spesifik xüsusiyyətləri və metodları"** - onun pedaqoji prinsipləri üzə çıxarılır.Onun son dərəcə gözəl ünsiyyətcilliyi, peşəkar məsələlərdə tələbkarlığı və heç bir güzəştə yol verməzliyi qeyd olunur. Aida Abdullayevanın pedaqoji işinin səciyyəvi prinsiplərindən biri də arfa ifaçısının hərtərəfli inkişafından, arfa sənətinin nəzəri və metodik biliklərinə möhkəm yiyələnilməsindən ibarət idi. O, hər bir tələbənin individuallığına qayğı ilə yanaşırdı, onun potensial imkanlarını üzə çıxarmağa cəhd göstərirdi, tələbənin musiqini düzgün qavrama qabiliyyətinin inkişafına diqqət ayırırdı. İkinci dərsdə əsərin əzbər ifası və onun məzmununun dərk olunması zəruri və mütləq idi. Yalnız bundan sonra səs, applikatura, faktura, frazirovka, pedal üzrə ətraflı iş yerinə yetirilirdi.

Müəllif mətninə dəqiq riayət olunmasını tələb edərək, Aida Abdullayeva eyni zamanda, tələbəyə əsərin bədii ideyasının üzə çıxarılmasından ötrü müəyyən yaradıcılıq sərbəstliyi verirdi, onun öz musiqi duyğularını boğmurdu.

Aida Abdullayeva hər zaman əllərin düzgün qoyuluşuna ("ovucun içində" çalaraq səsi açmağa, yüksək birinci barmağa) nəzarət edirdi, qamma və etüdlərin çalınmasına, notun üzdən oxunmasına böyük əhəmiyyət verirdi.

A.Abdullayeva sinfinin bütün tələbələri tərəfindən müəyyən proqramın ifası mühüm və zəruri idi: F.Dizi, Ş.Boks (Es-dur) – etüdlər; A.Tsabel – konsert etüdü; S.Prokofyev – prelüd; V.Posse – etüdlər (birinci və dördüncü barmaq üzərində); D.Tomas – etüd; M.Turnye – "Günəşin doğması" və "Meşədə, çay kənarında"; K.Debüssi – "Arabesklər", "Ay işığı" buna misaldır. A.Abdullayeva Ş.Boks və A.Tsabelin bütün etüdlərini tədris edirdi.

Tələbənin hazırlıq səviyyəsindən asılı olmayaraq, onlardan hər biri ilə o, M.Rubinin yeni başlayan arfa ifaçıları üçün kitabından məşğələlərə üz tuturdu. Bu yolla o, ifaçının simlərə toxunuşunu, səs hasilini, əldə olunan hər bir səsin rəvanlığı və müntəzəmliyini yoxlayırdı. Eyni zamanda, hər bir dərsdə Aida Abdullayeva yeni qammanın bütün növlərini soruşurdu. Barmaqların çəldliyindən daha çox, onların mütəşəkkilliyini və hamarlığını tələb edirdi. Hər bir qammaya aid o, mütləq müxtəlif növ texnikaya malik etüd tapşırırdı. Ş.Boksun etüdləri arasında o, qammavari, ikili, uzun və qısa arpeciolu etüdlərə üstünlük verirdi.

Xüsusi arfa sinfinin tədris proqramı Aida xanımın özü tərəfindən əsaslı surətdə hazırlanırdı, bu proqramda qədim və müasir bəstəkarların əsərlərinin öyrənilməsi nəzərə alınırdı, düzgün metodik ardıcıllıqda qurulurdu. Arfa sinfində polifonik əsərlərin öyrənilməsinə xüsusi əhəmiyyət verilirdi. Arfada belə əsərlərin ifası böyük çətinliklərlə bağlıdır. Çünki səs ahəngdarlığı, kantilenalılıq, mülayimlik, eləcə də eyni anda bir neçə səsləri

eşitmək qabiliyyəti tələb edir. Aida Abdullayeva mətnin, applikaturanın, hər bir səsin düzgün və mükəmməl öyrənilməsinə xüsusi diqqət ayırırdı, musiqi parçasının bütün səslərində ahəngdar, lətif səslənmə tələb edirdi. Düzgün səs hasili üçün onun müəllif ştrixləri və applikaturaları başlıca rola malik idi. O, diqqət yetirirdi ki, intonasiya bir çox hallarda əsərin üslub, janr və xarakterindən irəli gəlsin.

Aida Abdullayeva ritm duyğusunun təkmilləşməsinə çox vaxt ayırırdı. O, tələbəyə musiqinin daxili nəbzini hiss etməyə kömək edirdi; artikulyasiya üzərində iş aparırdı, düzgün seçilmiş applikatura və pedalizasiyanı musiqiçinin formalaşmasında vacib keyfiyyətlər hesab edirdi. Materialın öyrənilməsi əllərin iştirakı olmadan, yalnız pedal ifasından başlayırdı.

Məşğələlər zamanı Aida Abdullayeva ştrixlərə də yer verirdi. O, paralel olaraq həmişə səs üzərində iş aparırdı – bəzən ifadəliliyə, dəqiq interpretasiyaya, səsin gözəlliyinə nail olana qədər saatlarla fraza üzərində işləyirdi.

Onun pedaqogikada riayət etdiyi əsas prinsip – müəllif mətninə qayğılı münasibətdən ibarət idi. Lakin yeri gələndə o, öz əlavələrini də edirdi. Məsələn, M.Ravelin "İntroduksiya və allegro" əsərində o, yarım notlar üzərində qurulan akkordları arpecio üsulu ilə çalmağı tələb edirdi.

A.Abdullayeva özünün yüksək peşəkarlığı və pedaqoji ustalığı sayəsində tələbələrinə bir vaxtlar öz müəllimlərindən əxz etdiyi ənənələri ötürməyi bacarmışdır.

Dissertasiyanın **IV Fəsil – "Aida Abdullayevanın elmi-metodik fəaliyyəti"** – iki yarımfəsildən ibarətdir. **4.1. "Solo arfa işləmələrinin əsas prinsipləri**" adlanan I yarımfəsildə qeyd olunur ki, A.Abdullayeva arfa ifaçıları üçün çoxsaylı tədris-metodik materialların hazırlanmasında böyük əmək sərf etmişdir. Bununla əlaqədar olaraq onun Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının arxivində saxlanılan üç məruzəsi məlumdur. Birinci məruzədə ("Arfa mədəniyyətinin inkişafına dair") qədim zamanlardan başlayaraq, bu günə qədər arfanın qısa təkamülü nəzərdən keçirilir, ilk pedallı arfalar haqqında məlumat verilir və arfa aləti tarixində əhəmiyyətli rol oynayan arfaçı-bəstəkarların tərcümeyi-halından mühüm faktlar şərhini tapır. Rusiyada arfa tarixinə toxunulur, bu ölkədə arfa sənətinin inkişafında dərin iz qoymuş rus arfaçı-bəstəkarların fəaliyyətindən bəhs olunur.

İkinci məruzədə ("K.A.Erdeli - sovet arfa sənətinin banisidir") XVIII əsrin sonlarından başlayaraq Rusiyada arfa sənətinin inkişafından söz açılır, görkəmli arfa ifaçılarından danışılır, arfanın bəstəkar yaradıcılığında tətbiqindən, Moskva və Peterburq konservatoriyalarında arfa siniflərinin açılmasından və Rusiyada arfa sənətinin "ilk islahatçıları"ndan bəhs olunur.

A.Abdullayevanın üçüncü məruzəsində (“V.Q.Dulova - müasirliyin görkəmli arfa ifaçısıdır”) V.Dulovanın həyat və yaradıcılığından mühüm faktlara toxunulur. A.Abdullayeva görkəmli arfa ifaçısının fəaliyyətindən və onun geniş repertuarından ətraflı söz açır.

Aida Abdullayevanın elmi-metodik fəaliyyət sahəsinə eyni zamanda onun “Arfa Azərbaycan musiqisində” adlı məqaləsi[56] aiddir. Həmin məqalədə müəllif bu musiqi alətinin milli musiqidə rolunu üzə çıxarır, arfanı öz partituralarına daxil edən Azərbaycan bəstəkarlarının ilk operalarından bəhs edir. Burada həmçinin Azərbaycan bəstəkarlarının bir sıra simfonik əsərləri nəzərdən keçirilir, onların musiqili-texniki məqamlarının qısaca şərhi verilir.

Aida xanım tərəfindən musiqi texnikumlarının arfa sinifləri üçün proqram tərtib olunmuşdur. 1983-cü ildən 1985-ci ilə qədər o, iki məcmuənin-“Arfa üçün uşaq pyesləri” və “Azərbaycan bəstəkarlarının arfa üçün pyesləri”nin yaradılması üzərində işləmişdir.Birinci məcmuə “Respublikanın musiqi texnikumlarının arfa sinifləri üçün xüsusi proqram” adlı metodik vəsaitə əlavədir. A.Abdullayeva Azərbaycan musiqi texnikumlarında arfa ifaçılarının hazırlanmasına uyğun qaydada tərtib etdiyi proqrama Azərbaycan bəstəkarlarının əsərlərini imtahan repertuar siyahısına mütləq surətdə daxil etmişdir. Birinci məcmuəyə “Şahnaz” və “Şüştər” ladlarında qammalar əsasında kiçik etüdlər, X.Mirzəzadənin dəftərçəsindən bir neçə pyes, F.Əmirovun “Xatirə”, Q.Qarayevin “Fil və alabaş” pyesləri daxildir. İkinci məcmuə Q.Qarayevin g-moll prelüdü, “Yeddi gözəl” baletindən “Aişənin rəqsi”, “İldırımlı yollarla” baletindən “Laylay”, Z.Bağırovun “Fakir”, X.Mirzəzadənin “Noktürn”, E.Nəzirovanın prelüdü və A.Zeynallının “Muğamsayağı” əsərlərindən tərtib olunmuşdur.

Hazırki yarımfəsildə Aida Abdullayeva tərəfindən arfa üçün tərtib olunan işləmələr nəzərdən keçirilir. Bu pyeslər Azərbaycan klassik musiqi mədəniyyətinin inciləridir. Azərbaycan milli musiqisinin özünəməxsus təbiəti və bəstəkar üslubu bu işləmələrdə mühafizə edilib, qorunmuşdur.

Bu əsərlərlə yanaşı, Aida Abdullayeva bir sıra digər işləmələr də yaratmışdır:A.Məlikov - “Prelüd”, “Vals”, “Noktürn”; F.Əmirov - “Ballada”, “Noktürn”, “Laylay”, “Lirik rəqs”; Ə.Abbasov - “Kiçik prelüd”; A.Zeynallı - “Rəqs”; F.Quliyeva – “Üç prelüd” buna misaldır.

Məşhur Azərbaycan bəstəkarı X.Mirzəzadənin mütəxəssis məsləhətindən sonra hazırki işləmələr “Советский композитор” nəşriyyatı tərə-

[56] Abdullayeva A.  Arfa Azərbaycan musiqisində. Bakı, “Elm və həyat”, 1985, № 8, s.22-23

findən çap olunan arfa pyesləri məcmuəsinə daxil edilmişdir (tərtibçi L.Qordzeviç).

İşləmələr üzərində çalışarkən, Aida Abdullayeva arfa üçün münasib olan rahat faktura və applikaturanı nəzərə almış, koloristik arfa üsullarını geniş tətbiq etmiş və düzgün pedalizasiya müəyyənləşdirmişdir. Ümumilikdə, Aida Abdullayeva tərəfindən tərtib olunan işləmələr və onların redaktəsi alətin bədii-texniki imkanlarınınnümayiş olunmasına yönəldilmiş və əsərin müəllif qayəsinin üzə çıxarılmasına tabe edilmişdir. Bəstəkarların razılığı ilə o, mətndə müəyyən ixtisarlara yol vermiş, ikili notlar, registrlər üzrə "sürüşmələr" daxil etmiş, arfada daha yaxşı səslənmə əldə etmək üçün akkordları təkmilləşdirmişdir.

Aida Abdullayeva tərəfindən uğurla həyata keçirilən əsas vəzifələrdən biri də onun bütün yaradıcılıq yolu ərzində Azərbaycan bəstəkarlarının əsərləri ilə arfa ədəbiyyatının zənginləşdirilməsi işi idi. O, Azərbaycan bəstəkarlarının əsərləri əsasında arfa üçün çoxlu sayda işləmə və transkripsiyaların müəllifidir.

Aida Abdullayevanın Z.Bağırov, H.Xanməmmədov, X.Mirzəzadə kimi bəstəkarlarla yaradıcılıq əməkdaşlığı arfa üçün və arfanın bilavasitə iştirakı ilə milli repertuarı zənginləşdirən bir sıra gözəl əsərlərin yaranmasına səbəb olmuşdur. H.Xanməmmədovunarfa və kamera orkestri üçün Konserti, Z.Bağırovun "Çahargah", "Sentimental vals", eləcə də O.Felzer və X.Mirzəzadəninsonataları, F.Quliyevanın prelüdü buna misaldır.

**4.2. "Arfanın iştirak etdiyi ansamblişləmələrinin əsas prinsipləri"** – A.Abdullayeva tərəfindən tələbələrin inkişafına səfərbər edilən bəzi səylərdən-ansamblda çalğı vərdişlərinin təkmilləşdirilməsi və arfanın və başqa alətlərin iştirak etdiyi ansambl üçün işləmələrdən bəhs olunur. Bu işləmələr Q.Qarayev, A.Məlikov, Z.Bağırov və başqa bəstəkarların partituraları əsasında müxtəlif illər ərzində yazılmışdır. Burada əsərlər üslub və janr xüsusiyyətlərinin müxtəlifliyi ilə fərqlənir.

Orkestr musiqiçisi kimi müstəqil ifaçılıq məharətinə yiyələnən yüksək ixtisaslı mütəxəssislər yetişdirmək - Aida Abdullayevanın başlıca məqsədiolmuşdur. Bütün orkestr partiyalarında texniki cəhətdən mürəkkəb fraqmentlərin düzgün və qüsursuz mənimsənilməsindən ötrü o, dəqiq applikatura, pedal göstərişləri vermişdir. Bu göstərişlər musiqi materialının dərindən mənimsənilməsi və onun peşəkarcasına ifası üçün mühüm zəmin yaratmışdır. Arfa texnikasının mürəkkəb növləri Z.Bağırovun iki arfa və qanun üçün "Rapsodiya" (sonralar A.Abdullayeva tərəfindən arfa dueti üçün işlənmişdir); X.Mirzəzadənin dörd arfa üçün "Allegro"; A.Dadaşovun

arfa və violonçel üçün “Adajio”; A.Zeynallının skripka və arfa üçün “Muğamsayağı” əsərlərində öz əksini tapmışdır.

Azərbaycan bəstəkarlarının opera, balet və simfonik əsərlərindən fraqmentlər əsasında arfa üçün işlənmiş duet və kvartetlər, arfanın iştirakı ilə simli alətlərin triosu Aida Abdullayevaya məxsusdur. Onun tərəfindən yaradılan arfa ifaçılarının ansambl repertuarının əsas hissəsini Q.Qarayev musiqisi təşkil edir. “Don Kixot” simfonik qravürlərindən skripka və iki arfa üçün “Aldonsa”; “İldırımlı yollarla” baletindən skripka və iki arfa üçün “Qızların rəqsi”, iki arfa üçün “Qarabaşların rəqsi” və “Qızların gitara ilə rəqsi”, eləcə də “Yeddi gözəl” baletindən iki arfa üçün “Hind gözəli” və “Çin gözəli”nin rəqsi kimi ansambl nömrələri pedaqoji və bədii dəyərə malikdir.

Aida Abdullayeva tərəfindən işlənib, redaktə olunan Azərbaycan bəstəkarlarının arfanın iştirakı ilə ansambl əsərləri yüksək bədii zövqlə yaradılmışdır. Həmin işləmələr onun alətin spesifikasına dərindən bələd olmasını üzə çıxarır və ansambl çalğısına yiyələnən arfa ifaçılarının professional hazırlığında mühüm rol oynayır.

Aida Abdullayeva balet, opera və simfonik əsərlərdən mürəkkəb fraqmentlər əsasında arfa üçün məcmuələr tərtib etmişdir: Q.Qarayevin “İldırımlı yollarla” baleti, “Xoreoqrafik lövhələr”, “Alban rapsodiyası” və “Vyetnam” simfonik süitasından arfa üçün orkestr çətinlikləri; A.Məlikovun əsərlərində arfa üçün orkestr çətinlikləri; Z.Bağırovun “Aygün” və “Qoca Xottabıç” operalarından arfa üçün orkestr çətinlikləri buna misaldır.

**Nəticədə** tədqiqata yekun vurulur və qeyd olunur ki, Azərbaycanın əməkdar artisti Aida Abdullayevanın yaradıcılığımilli musiqi-ifaçılıq mədəniyyəti tarixinin parlaq səhifəsini təşkil edir. Azərbaycan arfa məktəbinin yaradıcısı olan bu gözəl musiqiçi və pedaqoq, milli musiqi sənətində yeni ifaçılıq və pedaqoji ənənələrin əsasını qoymuşdur. Dahi Ü.Hacıbəylinin xeyir-duası ilə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında arfa sənətinin ustadlarından dərs alaraq o, daim öz biliyini artırmış, professional bacarıqlarını təkmilləşdirmişdir. Bunun nəticəsində A.Abdullayeva topladığı potensialı yaratdığı məktəbə yönəltməyi bacarmışdır.

Aida Abdullayeva öz fəaliyyətinin əlli ili ərzindəarfa çalğı texnikasına dair yeni-yeni üsul və metodlar tətbiq edərək, Azərbaycan bəstəkarlarının əsərləri əsasında hazırladığı işləmə və transkripsiyalardan ibarət orijinal repertuar yaratmışdır.

Bu ifaçı və pedaqoqun səyi nəticəsində Azərbaycanda arfa ifaçılığı təşəkkül taparaq, sürətlə inkişaf etmişdir. Olduqca qısa bir zaman ərzində arfa Azərbaycan bəstəkarlarının əsl marağına səbəb olaraq, opera, balet, sim-

fonik və kamera əsərlərində səslənməyə başlamış və akademik musiqinin konsert proqramlarının bərabər hüquqlu iştirakçısına çevrilmişdir.

Bütün mümkün informasiya mənbələrinin öyrənilməsi – proqramların, dövri mətbuatda dərc olunan nəşrlərin, jurnalların, audio səs yazılarının, müəllif işləmələrinin nəzərdən keçirilməsi bu gözəl arfa ifaçısının yaradıcılığını dərindən dərk etməyə imkan yaratmışdır. Dissertasiya üzərində iş zamanı həmçinin, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının arxivindən, eləcə də A.Abdullayevanın şəxsi arxivindən əldə olunan materiallar və onun həmkarları və tələbələri ilə aparılan müsahibələr tədqiq olunmuşdur. Bunun nəticəsində A.Abdullayevanın yaradıcılıq fəaliyyətini daha dərindən öyrənmək üçün tədqiqat işinə yeni məlumatlar və dəlillər daxil edilmiş və onun Azərbaycan arfa sənətinin təşəkkülü və inkişafında rolu müəyyənləşdirilmişdir.

Tədqiqat nəticəsində Aida Abdullayevanın həyat və yaradıcılıq yolu rekonstruksiya edilərək, milli arfa məktəbinin banisinin yaradıcılıq aspektləri -ifaçılıq, pedaqoji, elmi-metodik (işləmə və transkripsiyaların yaradılması) fəaliyyəti bütün təfsilatı ilə nəzərdən keçirilmişdir.

Aparılan təhlillər belə bir nəticəyə gəlməyəimkan vermişdir ki, Aida Abdullayevanın yaradıcılıq fərdiliyi, onun individual ifaçılıq və pedaqoji üslubu bir sıra milli və qeyri-milli faktorların təsiri altında formalaşmışdır.

Beləliklə, A.Abdullayevanın çoxcəhətli ifaçılıq, pedaqoji və elmi-metodik fəaliyyəti deməyə əsas verir ki, o, Azərbaycanda arfa sənətinin təşəkkülü və inkişafında mühüm rol oynamışdır. Milli musiqi mədəniyyəti tarixində silinməz iz qoyan A.Abdullayevanın ənənələri XXI əsrdə davam və inkişaf etməkdədir.

**Dissertasiyanın elmi nəticələrimüəllifin aşağıdakı nəşrlərində öz əksini tapmışdır:**

1. Творческая деятельность первой профессиональной арфистки Азербайджана Аиды Абдуллаевой. / Doktorantların və gənc tədqiqatçıların XVI respublika elmi konfransının materialları. Bakı, “Müəllim” nəşriyyatı, 2012. s.385-389

2. К истории развития искусства игры на арфе в Азербайджане. /«Искусство глазами молодых». Материалы IV Международной (VIII Всероссийской) научной конференции студентов, аспирантов и молодых ученых 26-27 апреля. Красноярск, 2013, с. 266-269

3. О роли Аиды Абдуллаевой в развитии арфового репертуара в Азербайджане. // «Поиск», научный журнал-приложение Междуна-

родного научно-педагогического журнала «Высшая школа Казахстана». Казахстан. №3/2013, s.13-16

4. Об особенностях педагогической деятельности А.Абдуллаевой. // "Harmony" международный музыкальный культурологический журнал. Баку, Выпуск №12/2013, http://harmony.musigi-dunya.az, 5инт. с.

5. Основные принципы переложения фортепианных пьес Фикрета Амирова для арфы Аиды Абдуллаевой. // Журнал "Musiqi dünyası". Баку, Выпуск №4/57, 2013, www.musigi-dunya.az, 9 инт. с.

6. Концертная деятельность А.Абдуллаевой. // "Harmony" международный музыкальный культурологический журнал. Баку, Выпуск №13/2014, http://harmony.musigi-dunya.az, 5инт. с.

7. Azərbaycanmusiqisində - arfa.// "Harmony" международный музыкальный культурологический журнал. Баку, Выпуск №14/2015, http://harmony.musigi-dunya.az, 5инт. с.

8. Таптыгова Е. Основные принципы А.Абдуллаевой при переложении для арфы соло произведений К.Караева и Х.Мирзазаде.// «Mədəniyyət.AZ» jurnalı № 6 (304) 2016, с.62-64

9. Taptıqova Y. Azərbaycan bəstəkarlarının arfa ilə ansambl əsərləri (Aida Abdullayevanın köçürmələri əsasında). "Konservatoriya" elmi nəşr. Azərbaycan Milli Konservatoriyası. № 2 (32), 2016, s.31-33

**Yegana Vagif Taptigova**

# TheroleofAidaAbdullaeva in the development of harp performing arts in Azerbaijan

## SUMMARY

The followingdissertation consists of introduction, 4 chapters, 8 paragraphs, conclusion, bibliography and note graph. The introduction emphasizes the relevance of the degree of elaboration of the theme, goals and objectives, as well as scientific and practical significance of the study.

In the dissertation, on the topic presented, a lot of attention is paid to the creative activity of Azerbaijani first harpist, Honored Artist of Azerbaijan, Aida Abdullayeva. The dissertation considers the achievementsof Aida Abdullayeva in solo, chamber and orchestral performance, reveals her pedagogical principles and methods, as well as discusses the role of Aida Abdullaeva in the development of Azerbaijani harp performance.

**Chapter I** solely named **"Aida Abdullayeva as the founder of Azerbaijani classical harp school"** consists of two sections, which in the own turn deal with problems of formation of harpist art in Azerbaijan, as well as the life and creative activityofAbdullayeva.

**In the section 1.1. "On some of the historical aspects of the formation of harp art in Azerbaijan"** the existence of harp-like tools (Chiang) in Azerbaijan since ancient times is mentioned.

**In the section 1.2. "The main stages of the life and work ofAida Abdullayeva"** highlights the main points of her life and activities in general. It is noted the role of family traditions associated with the Abdullaeva'sArablinsky and Utsmiev ancestors who played great importance for the formation of character and outlook of Aida Abdullayeva.

**Chapter II "Performing activity of Aida Abdullayeva as a source for the study of her work"** consists of two sections.

**Section 2.1. "Concert activity of Aida Abdullayeva"** reveals the features of her performing activity.

**Section 2.2. "The interpretation of musical works in the performing practice of Aida Abdullayeva"** reveals the features of her game, as well as the main features of the performing style of the pieces.

**Chapter III - "Pedagogical principles of Aida Abdullayeva and modern practice of teaching harp"** consists of two sections.

**Section 3.1. "Educational activity of Aida Abdullayeva at the Azerbaijan State Conservatory of U.Hajibeyli"** is characterized by the activity of the musician in the walls of the institution, reveals her special role in the development of national harp pedagogy.

**Section 3.2. "Specific features and methods of pedagogical activity of Aida Abdullayeva"** discloses pedagogical principles and methods of A.Abdullayeva.

**IV Chapter "Scientific - methodical activity of Aida Abdullayeva"** consists of two sections.

**Section 4.1. "The basic principles of transcriptions for harp solo"** speaks about the important role of Aida Abdullayeva in the preparation of a large number of training material for harpists.

**Section 4.2. "The basic principles arrangements for the ensemble with harp"** tells about the efforts invested by Aida Abdullaeva in the development of students' skills in playing ensemble and to establish arrangements for the harp ensemble as well as other instruments, which differ in a variety of styles and genre features.

In conclusion, summarization of the study is given, which stresses that the work of Honored Artist of Azerbaijan Aida Abdullayeva is a bright page in the history of Azerbaijan musical-performanc culture.

Çapa imzalanıb: 01.09.2016.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru